

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 78 (21.739)

26 aprel 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katorinin etimadnaməsini qəbul edib.

Səfir Teruyuki Katori fəxri qarovul dəstəsinin qarşısından keçib.

Teruyuki Katori etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Görüşdə Yaponiya şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunulub, ölkələrimiz arasında müasir texnologiyalar, neft və kimya, əczaçılıq, ağır sənaye, turizm, kənd təsərrüfatı, ticarət sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 aprel 2017-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlığın genişləndirilməsi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlar və dövlət qulluqçuları da vardır.

**Əliyev Rafiq Cəfərəli oğlu**
**Hacıyev Ehtibar Məmməd oğlu**
**Məmmədov Zakir Əhməd oğlu**

"Tərəqqi" medalı ilə,

**Cəfərov Anar Cəmil oğlu**
**İbrahimov Elnur Vaqif oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## Ulu öndər Heydər Əliyevin inkişaf və quruculuq siyasəti bu gün uğurla davam etdirilir



***Kəngərli rayonunun Xok Kənd Mərkəzində "Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən inkişaf və quruculuq xətti" mövzusunda tədbir keçirilib.***

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının keçirdiyi tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva məruzə ilə çıxış edib. Qeyd olunub ki, ulu öndər Heydər Əliyev bütün şərəfli ömrünü xalqının rifahının yaxşılaşdırılmasına, müstəqil Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmasına, onun nüfuzunun artmasına həsr edib. 1993-cü ildən başlayaraq dahi şəxsiyyətin rəhbərliyi ilə ölkəmizdə güclü, qüdrətli bir dövlət qurulub. Bu gün dünyada böyük nüfuz qazanan müstəqil Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin şah əsəridir. Ümummilli liderin ideyaları, dahi rəhbər tərəfindən müəyyənləşdirilən inkişaf strategiyası bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Dövlət başçısının əzmkar və yaradıcı fəaliyyəti sayəsində ölkəmiz böyük inkişafa qovuşub, onun beynəlxalq aləmdə nüfuzu daha da artıb.

Vurğulanıb ki, ulu öndərimiz Heydər Əliyevin uzaqgörənlik və müdrikliklə müəyyənləşdirdiyi quruculuq və inkişaf siyasətinin qədim diyarda ardıcıl şəkildə həyata keçirilməsi nəticəsində muxtar respublikamız, o cümlədən onun hər bir bölgəsi yüksək inkişaf səviyyəsinə çatıb. Diyarımızın hər bir rayon, qəsəbə və kəndində aparılan abadlıq-quruculuq tədbirləri sakinlərin rahatlığını təmin edib, yaradılan yeni istehsal müəssisələri, açılan yeni iş yerləri məşğulluğu təmin edib, əhalinin rifah halı yaxşılaşıb.

Vurğulanıb ki, muxtar respublikamızda aparılan quruculuq tədbirləri çərçivəsində Kəngərlidə görülən işlər rayonun simasını tamamilə dəyişib, onun görünüşünə müasirlik və əzəmət gətirib. Rayonun yaradıldığı gündən keçən 13 il ərzində əldə olunan nailiyyətlər, burada müxtəlif sənaye və kənd təsərrüfatı istehsalı sahələrinin yaradılması, təhsil və infrastruktur quruculuğu seçilən düzgün yolun bariz nümunəsi kimi diqqəti cəlb edir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının şura üzvü Hacırəddin Mehbalıyev, Xok kənd ərazi ilk partiya təşkilatının idarə heyətinin üzvü Mübariz Əliyev mövzu ətrafında çıxış ediblər. Bildirilib ki, bütün mənalı ömrünü ölkəmizin inkişafına həsr edən ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaradıb, ölkəmizi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq hüququ qazanıb. Bu gün dahi şəxsiyyətin yolu ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir.

**Babək İSMAYILOV**

## Akademik Zərifə Əliyevanın anadan olmasının 94 illiyinə həsr edilmiş elmi-praktik konfrans olub

***Aprelin 25-də Naxçıvan Muxtar Respublika Xəstəxanasında görkəmli elm xadimi, tanınmış oftalmoloq, akademik Zərifə Əliyevanın anadan olmasının 94 illiyinə həsr olunmuş "Oftalmologiyanın aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib.***



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin birgə keçirdiyi tədbirdə çıxış edən səhiyyə nazirinin müavini Samrat Gəncəyeva görkəmli oftalmoloq-alim, bənzərsiz ziyalı Zərifə Əliyevanın son dərəcə zəngin, mənalı həyat və fəaliyyətinin müxtəlif dövrlərindən danışıb. Qeyd edib ki, Zərifə xanım Əliyevanın Azərbaycanın qədim və dilbər guşəsi olan, ölkəmizə görkəmli dövlət xadimləri, tarixi şəxsiyyətlər, elm adamları bəxş etmiş bir torpaqda – Naxçıvanda doğulub boya-başa çatması hər bir naxçıvanlı üçün iftixar və qürur mənbəyidir. Zərifə xanım Əliyeva ötən əsrin 40-50-ci illərində Azərbaycanın cənub rayonlarında əhali arasında geniş yayılmış traxoma xəstəliyinə qarşı aparılan bütün mübarizə tədbirlərində fəallıq göstərib. Bu böyük praktik iş görkəmli alimin bir sıra elmi əsərlərinin əsasını yaradıb. Sonralar akademik dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoyub. Bu tədqiqatlar nəticəsində Zərifə xanım Əliyeva "Azərbaycanda kimya sənayesinin bəzi müəssisələrində işçilərin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Peşə xəstəlikləri ilə bağlı elmi axtarışlarına görə SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. O, peşə patologiyası problemləri ilə yanaşı, oftalmologiyanın digər aktual istiqamətlərində də tədqiqatlar aparıb. Görkəmli alimin 200-dək elmi işi, 14 monoqrafiyası, 12 səmərələşdirici təklifi bu gün də aktuallığını qoruyub saxlayır.

Konfransda Naxçıvan Muxtar Respublika Xəstəxanasının Göz xəstəlikləri şöbəsinin bölmə müdiri Samiq Sadıqovun "Naxçıvan şəhərində şəkərli diabet xəstələri arasında diabetik retinopatiyanın yayılması", Göz xəstəlikləri şöbəsinin həkim-oftalmoloqu Kəmalə Əliyevanın "Astiqmatizmin korreksiyasına müasir baxış" mövzularında məruzələri dinlənilib.

Çıxışlar videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, müzakirələr aparılıb. Tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Biznes Mərkəzində Sahibkarlar Günü münasibətilə tədbir keçirilib

***Naxçıvan Biznes Mərkəzində 25 aprel – Sahibkarlar Günü münasibətilə tədbir keçirilib.***

Tədbiri Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov açaraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 aprel tarixli Sərəncamına əsasən hər il aprelin 25-nin Azərbaycanda "Sahibkarlar Günü" kimi qeyd edilməsi ölkəmizin sosial-iqtisadi inkişafında, məşğulluğun təmin olunmasında sahibkarların fəaliyyətinə verilən yüksək qiymətin təzahürüdür. Vurğulanıb ki, sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən dövlət siyasəti ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının davamı etdirilməsinə və iqtisadi islahatların uğurla həyata keçirilməsinə etibarlı zəmin yaradıb. Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən sistemli tədbirlər, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələri biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılmasına geniş imkanlar açıb. Görülən ardıcıl tədbirlər, özəl bölmənin inkişafına dövlət qayğısı nəticəsində Naxçıvanda geniş sahibkarlar sinfi formalaşıb və onlar sosial-iqtisadi inkişafda aparıcı qüvvəyə çevriliblər. Nəticədə, muxtar respublikada yaradılan 2 milyard 582 milyon 361 min manatlıq ümumi daxili məhsulda özəl bölmənin payı 87 faizə çatıb.

Bildirilib ki, bu gün muxtar respublikada 367 növdə məhsul istehsalı, 344 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi sahibkarlığın inkişafına yönəldilmiş kompleks tədbirlərin uğurlu nəticəsidir. Eyni zamanda muxtar respublikada sahibkarlığın inkişafı nəticəsində yaradılan yeni iş yerləri cəmiyyətdəki sosial məsələlərin həllində mühüm rola malikdir. Belə ki, 1 oktyabr 2003-cü ildən 1 yanvar 2017-ci il tarixədək dövrdə Naxçıvanda yaradılan müəssisələrdə 69 mindən çox yeni iş yeri açılıb, əhalinin məşğulluğu təmin olunub.

İqtisadiyyat naziri vurğulayıb ki, muxtar respublika sahibkarlarına dövlət tərəfindən daim diqqət və qayğı göstərilir. Belə ki, sahibkarların yeni layihələri reallaşdırması üçün Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən Sahibkarlığa Kömək Fondunun vəsaitləri hesabına 2000-ci ildən ötən müddət ərzində 1228 layihənin maliyyələşdirilməsinə 134 milyon 468 min manatdan artıq həcmdə kredit verilib. Nəticədə, naxçıvanlı sahibkarlar bu gün öz məhsulları ilə daxili bazarı təmin edir, eyni zamanda muxtar respublikadan Türkiyə, Ukrayna, Qazaxıstan, Gürcüstan, Belarus, Litva, Türkmənistan, Rusiya və İran kimi ölkələrə ərzaq, tikinti, mebel, yüngül sənaye məhsulları ixrac edirlər. Əldə olunan bütün bu nailiyyətlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlara göstərdiyi daimi diqqət və qayğının nəticəsində mümkün olub. Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması, sahibkarların problemlərinin öyrənilməsi, onlara dövlət qayğısının gücləndirilməsi məqsədilə hər il ənənəvi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla görüşü keçirilir. Dövlət qayğısının ən yüksək səviyyədə bir daha təsdiqi olan bu görüşlər muxtar respublikada sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoyub.



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov, "Nəqşicahan Holdinq Şirkətlər Qrupu" MMC-nin direktoru Abbas Talıbov və "D-Adlı Qaymaq" MMC-nin sahibkarı Elşad Məmmədov bildiriblər ki, yeni dövrdə muxtar respublika sahibkarları qarşısında mühüm vəzifələr durur. Göstərilən dövlət qayğısından daha səmərəli istifadə etmək, daxili bazarı daha keyfiyyətli məhsullarla təmin etmək, xidmət sektorunda, xüsusən turizm sahəsində fəallığı artırmaq üçün bu gün geniş imkanlar var.

Çıxışlarda əminliklə bildirilib ki, muxtar respublikamızın sahibkarları ölkəmizin iqtisadi qüdrətinin artmasına öz töhfələrini vermək, muxtar respublikamızı xarici bazarlarda daha da geniş şəkildə tanıtmaq üçün uğurlu biznes layihələri həyata keçirəcəklər.

Sonra qazandıqları uğurlara görə, "İlin sahibkarı", "İlin şirkəti", "İlin məhsulu", "İlin ixracatçısı", "İlin yerli məhsul alıcısı" və "Ən fəal işəgötürən" nominasiyaları üzrə "Biznesdə uğur – 2016" mükafatlarının təqdimolunma mərasimi keçirilib, Naxçıvan Biznes Mərkəzində yerli məhsulların sərgisinə baxış olub.

**✍ Əli CABBAROV**

***Q**ədim diyarımızın dünənini görən hər bir naxçıvanlı o dövrü yaxşı xatırlayır. Anarxiyanın, özbaşınalığın tüğyan etdiyi, insanların bu gündən sabaha ümidlərinin tükəndiyi bir zamanda həyat sanki donmuşdu. İstehsal müəssisələrinin, müxtəlif xidmət sahələrinin fəaliyyəti dayanmış, məhsuldar və bərəkətli torpaqlar sanki sahibsiz qalmışdı. Həmin günlərin acı xatirələrini özündə yaşadan qəzetimizin səhifələrində ürəkağrıdan yazılara rast gəlmək olar. Elə 1993-cü il aprel ayının 17-də dərc olunmuş bir məqalə də bu barədədir. Həmin məqaləni oxucularımıza təqdim edirik:***

## Naxçıvan dünən

# Gözümüz öz təknəmizdə olsun

Xain qonşunun müharibə ilə başımızı qatmadığı illərdə yazın gəlişi təkcə təbiətin deyil, həm də hisslərin, duyğuların oyanışı kimi tərənnüm edilərdi. Rəssamlar yaz sərgiləri açar, istedadlı ifaçılar yazda keçirilən müsabiqələrdə üzə çıxar, qışın yekununa görə fəxri adlar, təltif və mükafatlar da yaz aylarında edilərdi. Bülbüllərin xoş avazı bulaqların nəğməsinə qovuşduqca əməkçi insanlar tarlalara çıxar, taxıl əkib, bağ salardılar.

Bu yaz isə bülbüllərin avazı, bulaqların zümzüməsi ilə deyil, azğın düşmənin qan qoxulu top-tüfəngi ilə gəldi, hələ qışın ortalarında türk mətbuatının səhifələrində "Bu yazda ermənilərin hücumu gözlənilir" adlı xəbərlər bizə çox şey deyirdi. Biz isə xarakterimizə rəğmən bu xəbəri də biganəlik və etinasızlıqla qarşıladıq. Mətbuatda, radio və televiziyada sayıqlığa çağıran yazılar, materiallar əvəzinə siyasi partiyaların bir-birinə qarşı ünvanlanmış qərəzli çıxışlarını oxuyub, dinləyib feyziyab olduq. Elə bu soyuqqanlılığımız üzündən Azərbaycanın bir dilbər guşəsi də fəlakət girdabına yuvarlandı. Kəlbəcər şəhəri, rayonun neçə-neçə kəndi düşmən tapdağına məruz qaldı. On minlərlə soydaşımız yurdundan, yuvasından didərgin düşdü.

Belə ağır vaxtda təkcə Vətən, torpaq deməklə iş bitmir. Müharibə gedən ölkənin özünəməxsus sərt qanunları olmalıdır. Artıq Qarabağın yüz hektarlarla əkin sahələri əlimizdən çıxıb, Azərbaycanın Ermənistanla sərhəd rayonlarındakı torpaqlarda işləmək təhlükəli olduğu üçün həmin ərazilər istifadəsiz qalıb. Hər gün televiziya ekranlarında, qəzet səhifələrində təkzib edilən "çörək olmayacaq" fikri bir gün təsdiq də edilə bilər. Axı müdriklərimiz deyiblər ki, qonşuya ümid olan şamsız qalar. Artıq neçə vaxtdır ki, Azərbaycan qonşu hesabına səhər yeməyi yeyib, nahar etdikcə şamsız qalmaq təhlükəsini də unudub. Qonşu İran İslam Respublikasından, Türkiyədən alınan taxıl və taxıl məhsulları hesabına bir respublikanı nə vaxtadək ötüşdürmək olar? Bu gün ataların "yağmadı yağış, bitmədi qamış" məsəlini də tez-tez xatırlamalıyıq. Axı o yardım bir gün verilməyə də bilər. Bəs onda halımız necə olar?

Bu suala məhz elə indidən, yazın bu çağından cavab axtarılmalıdır. Çünki bir həftədən, on gündən sonra artıq gec olacaqdır. Adamları aclıq təhlükəsindən qorumaq üçün bu gün elliklə sahələrə çıxmalı, yaz əkini mütəşəkkilliklə aparılmalıdır.

Bir neçə gün bundan irəli muxtar respublika Ali Məclisinin Rəyasət Heyətində çox doğru olaraq təklif edildi ki, blokada ilə əlaqədar olaraq işini dayandırmış sənaye müəssisələrinin fəhlələri də təsərrüfat işlərinə cəlb edilsinlər. Əlbəttə, bu təklif bütün bölgələr üçün ən səmərəli təklifdir. Arxa cəbhənin ön cəbhəyə köməyi üçün ən yaxşı variantdır.

Bir ilə yaxındır ki, əksər müəssisələrdə xammalın olmaması, maşın və avadanlıqların ehtiyat hissələrinin çatışmaması üzündən iş dayanıb. Həmin müəssisələrin nə vaxt işləyəcəyi də hələlik məlum deyil. Cüzi əməkhaqqı ödənilməklə işsiz qalan fəhlələrin bir qismi möhtəkirliklə məşğul olaraq xeyli qazanırsa, bir qismi isə gərgin iqtisadi çətinliklərlə üzləşir. Xüsusi komissiyalar, dayaq dəstələri yaratmaqla mətbuatda, radio və televiziyada elanlar verməklə belələrini işə cəlb etmək olar.

İndi keçirilən hər bir müşavirədə, aparılan söhbətlərdə xeyli miqdarda toxumluq buğda, arpa və kartof alınması barədə danışılır. Axı almaqla iş bitmir, onu əkmək, becərmək, ərsəyə gətirmək gərəkdir. Bunun üçün məcburi iməciliklər belə, təşkil etmək vacibdir. Heç olmazsa, yaz mövsümü çağında kəndlinin şəhərə kütləvi axınının qarşısı alınmalıdır. 10-15 yumurtanı, 2-3 kilo qatıq və pendiri torbasına qoyub şəhər bazarına üz tutaraq nisbətən asan qazanc dalınca qaçan kənd adamına əsl iş yerini xatırlatmağın vaxtı çatıb. Əgər sabah bir xalq kimi məhv olub, bir millət kimi kimdənsə asılı olmaq istəmiriksə, özümüz-özümüzə gün ağlamalıyıq. "Çörək bol olarsa, basılmaz Vətən" ifadəsinin hikmətini bir də yada salmalıyıq. Axı namuslu, zəhmətkeş insan üçün öz əməyinin bəhrəsi olan arpa çörəyi başqasının verdiyi buğda çörəyindən qat-qat şərəflidir.

Yaz fəsli oyanış dövrüdür, hisslərin, duyğuların oyanışı. İstərdik ki, yazın gəlişi ilə birgə kortalmış hisslərimiz, donmuş duyğularımız da oyansın, ayılaq. Ayılıb görək ki, "birləşək" deyə-deyə parçalandıq, "torpaq" deyə-deyə torpaqlarımızı itirdik. Heç olmasa, mənliyimizi itirməyək, şərəfimizi qoruyaq. Hamılıqla qolumuzu çırmayıb işə girişək, əkək, becərək, öz gözümüz öz təknəmizdə olsun, özgə əlində yox. Bunun üçün yazın hər günündən, hər saatından səmərəli istifadə etməli, payızın bol məhsulunun təməlini elə indidən qoymalıyıq. Buna bizim imkanımız da vardır, bərəkətli torpaqlarımız da.

***"Şərq qapısı" qəzeti***
***17 aprel 1993-cü il***

## və bu gün

# Gözümüz öz təknəmizdədir

## Bu təknədə bolluq təmin olunub

***Bu yazının "Şərq qapısı" qəzetində dərc olunmasından düz 24 il ötür. Bu, o zamanlar idi ki, Azərbaycanda ictimai-siyasi vəziyyət mürəkkəbləşmiş, torpaqlarımızın bir qismi işğal olunmuş, hakimiyyət faktiki olaraq ölkəyə nəzarət etmək funksiyasını itirmişdi. Yaranmış vəziyyət nəticəsində Naxçıvan Muxtar Respublikası ermənilər tərəfindən blokadaya alınmış, paytaxt Bakı və ölkəmizin digər regionları ilə nəqliyyat və kommunikasiya əlaqələri kəsilmişdi. Blokada isə özü ilə bərabər muxtar respublikaya bir çox çətinliklər gətirmişdi. Müəssisələrin öz fəaliyyətlərini dayandırması, xammalın olmaması, yanacaq, nəqliyyat, rabitə və digər sahələrin iflic vəziyyətinə düşməsi, işsizliyin artması, cəbhədə vəziyyətin gərgin olaraq qalması və digər saysız-hesabsız çatışmazlıqlar muxtar respublikanın ozamankı mənzərəsini özündə əks etdirirdi. Məhz belə bir dövrdə əsas məsələlərdən biri də muxtar respublika əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi idi.***

Bu məsələnin həlli isə elə də asan deyildi. Çünki torpağın əkilməsi üçün saysız-hesabsız problemlər yaranmışdı. Yanacaq qıtlığı, maşın və avadanlıqlar üçün ehtiyat hissələrinin çatışmazlığı, gübrə və toxum ehtiyatının olmaması, su problemləri və sair kəndlinin əlini torpaqdan soyutmuşdu. İnsanların yeganə ümidi xalqımızın ümummilli lideri Heydər Əliyevin həmin dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi idi. Məhz ulu öndərin şəxsi nüfuzu sayəsində qısa müddətdə qonşu İran İslam və Türkiyə respublikaları ilə əlaqələr qurulmuş, muxtar respublikanın zəruri ehtiyacları bu ölkələrdən ödənilməyə başlanmışdı. Ancaq belə bir vəziyyət uzun müddət davam edə bilməzdi. Yazıda da vurğulandığı kimi, "...Əgər sabah bir xalq kimi məhv olub, bir millət kimi kimdənsə asılı olmaq istəmiriksə, özümüz-özümüzə gün ağlamalıyıq. "Çörək bol olarsa, basılmaz Vətən" ifadəsinin hikmətini bir də yada salmalıyıq. Axı namuslu, zəhmətkeş insan üçün öz əməyinin bəhrəsi olan arpa çörəyi başqasının verdiyi buğda çörəyindən qat-qat şərəflidir".

Doğru deyiblər ki, yaman günün ömrü az olar. Elə bu yazının dərc edilməsindən cəmi bir neçə ay sonra ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ölkəmizi, eləcə də muxtar respublikamızı gözlənilən bütün bəlalardan xilas etdi. Qısa müddətdə ulu öndərin rəhbərliyi ilə kənd təsərrüfatında kompleks islahatlara başlanıldı, qanunvericilik bazası formalaşdırıldı, nəticədə, kənd təsərrüfatı yeni inkişaf mərhələsinə qədəm qoydu.



Ötən dövrdə bu siyasətin ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində kənd təsərrüfatında məhsul istehsalı stimullaşdırıldı, rəqabət qabiliyyəti artırıldı. Belə ki, məhsul istehsalçılarının torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi, əkin sahələrinin hər hektarının becərilməsi üçün torpaq mülkiyyətçilərinə istifadə olunan gübrələrin 70 faizinin pulsuz verilməsi, satılan texnikaların və suvarma qurğularının dəyərinə 40 faiz güzəştin tətbiq olunması, toxumçuluq və tingçilik təsərrüfatlarına subsidiyaların ödənilməsi, yanacaq-sürtkü materiallarına görə verilən yardımların 25 faiz artırılması kənd təsərrüfatı ilə məşğul olan sahibkarların torpağa olan münasibətini dəyişdi. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu gün kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindəndir və əhalinin əksər hissəsinin kənddə yaşaması və aqrar sektorda çalışması bu sahənin daim diqqət mərkəzində olmasını şərtləndirir. Təsadüfi deyil ki, Azərbaycanda ilk dəfə olaraq aqrar islahatların aparılmasına ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında məhz Naxçıvanda başlanıldı, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşdırıldı. Ötən dövrdə muxtar respublikada 205 kəndi əhatə edən 132 təsərrüfatda islahatlar aparılaraq 70 min 758 ailəyə və ya 241 min 46 nəfərə torpaq sahəsi verildi, yeni mülkiyyət münasibətlərinə əsaslanan təsərrüfat qurumlarının yaradılması istiqamətində görülmüş işlər kənd təsərrüfatının dinamik inkişafının təməlini qoydu.







Naxçıvan Muxtar Respublikasında aqrar islahatların uğurla başa çatdırılması kənd təsərrüfatı məhsulları istehsalının həcmində dinamik artımın əldə edilməsinə səbəb oldu. Bu sahədə inkişafın təmin olunmasında dövlət proqramlarının icrası da mühüm rol oynadı. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı təsdiq olunmuş dövlət proqramları, eləcə də əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair, kartofçuluğun, meyvəçiliyin, tərəvəzçiliyin, arıçılığın inkişafı ilə bağlı dövlət proqramları kənd təsərrüfatının inkişafı ilə yanaşı, kəndlərin simasının da dəyişməsinə səbəb oldu. Aqrar sahənin inkişafı kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan müəssisələrin sayını artırdı, yeni soyuducu anbarlar, istixana kompleksləri fəaliyyətə başladı. Hazırda muxtar respublikada ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar və sahəsi 127 min 162 kvadratmetr olan 21 istixana kompleksi, tutumu 27 min ton olan uzunmüddətli taxıl ehtiyatı anbarları, 17 taxıl emalı müəssisəsi, 235 heyvandarlıq, 64 quşçuluq, 102 arıçılıq, 15 balıqçılıq, 72 bağçılıq və üzümçülük təsərrüfatı fəaliyyət göstərir. Ötən dövr ərzində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 1835 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirildi, onlardan 1506-sı lizinq yolu ilə sahibkarlara verildi. Aqrar sahəyə göstərilən diqqət və qayğının nəticəsidir ki, 2016-cı ildə muxtar respublikada 100 min 768 ton dənli və dənli-paxlalı, 10 min 500 ton dən üçün qarğıdalı, 725 ton dən üçün günəbaxan, 83 min ton tərəvəz, 46 min ton kartof, 38 min ton bostan məhsulları, 52 min ton meyvə, 15 min 600 ton üzüm, 25 min 766 ton ət, 81 min 372 ton süd, 80,5 milyon ədəd yumurta, 1022 ton yun və 1403 ton bal istehsal olundu. Kənd təsərrüfatı sahəsinin dinamik inkişafı ixracın həcminə də müsbət təsir göstərdi, nəticədə, ötən il muxtar respublika üzrə 99 milyon Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olundu.

Aqrar sahədə məhsuldarlığı artırmağın ən optimal yolu toxumçuluq təsərrüfatlarının inkişaf etdirilməsidir. Strateji sahə hesab olunan toxumçuluğun inkişafı hazırda bütün dünya ölkələri üçün prioritet istiqamətlərdəndir. Naxçıvan Muxtar Respublikasında son illərdə bu sahədə görülən işlər də diqqətçəkicidir. Cari il aprel ayının 4-də muxtar respublikanın toxumçuluq təsərrüfatına yeni texnikaların və avadanlıqların verilməsi də bu sahənin inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Muxtar respublikaya gətirilən 33 adda 80 kənd təsərrüfatı texnikası, eləcə də toxum laboratoriyası iki min hektar sahədə yeni metodlarla əkin və becərmə işlərinin aparılmasına öz töhfəsini verəcək. Alınmış texnika və avadanlıqlar hesabına toxumçuluq laboratoriyasında yüksək məhsuldarlığa malik, xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortları yetişdiriləcək, toxumların genofonduna və seleksiyasına nəzarət olunacaq. Bununla yanaşı, muxtar respublikada bu sahədə görülən işlərin davamı olaraq "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin toxumçuluq təsərrüfatının Kəngərli rayonunun Böyükdüz kəndindəki əkin sahələrində yeni qapalı suvarma şəbəkəsi qurulacaqdır. Bu isə, öz növbəsində, muxtar respublikada aqrar sahənin inkişafının yeni mərhələyə qədəm qoymasına imkan verəcək.

Tarlalarda yaz əkini davam edir. Ötən əsrin 90-cı illərinin əvvəllərindən fərqli olaraq indi əkin sahələrindən texnikaların səsi gəlir, payızın bol məhsulu üçün torpaq mülkiyyətçiləri sahələrdə müxtəlif təsərrüfat işləri aparırlar. Onlar bilirlər ki, əldə etdikləri məhsulla ailələrini dolandıracaq, məhsul bol olarsa, bazara çıxaracaq və ya ixrac edə biləcəklər. Beləliklə, bütün hallarda qazanacaqlar. O zamandan bu günümüzədək olan dövrdə hər kəs onu da anlayıb ki, Naxçıvanın yerli məhsullarının dad-tamını heç bir idxal məhsulu əvəz edə bilməyəcək. Bu səbəbdən indi torpaq mülkiyyətçiləri yaradılmış şəraitdən istifadə edərək daha çox məhsul tədarük etməyə çalışırlar. Çünki bilirlər ki, məhsulunu saxlamaq üçün anbarı, satmaq üçün bazarı var. Ona görə də ötən günləri yada saldıqca, bu sözləri demədən keçə bilmirsən: "İndi gözümüz öz təknəmizdədir".

**Səbuhi HƏSƏNOV**

*26 aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür*

# Əqli mülkiyyət sisteminin inkişafı iqtisadi siyasətin mühüm istiqamətidir

***Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş Assambleyasının 2000-ci ildə qəbul etdiyi qərarla hər il aprelin 26-sı Beynəlxalq Əqli Mülkiyyət Günü kimi qeyd olunur.***

Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş hüquqi dövlət quruculuğuna uyğun olaraq əqli mülkiyyət hüquqlarının qorunması və səmərəli idarə olunması üçün hüquqi baza yaradılmış, 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, 1997-ci ildə “Patent haqqında”, 1998-ci ildə “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Ölkəmiz bu istiqamətdə beynəlxalq təcrübədən yararlanmaq və əlaqələri dərinləşdirmək məqsədilə 1995-ci ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatına üzv olmuş, Avrasiya Patent Konvensiyasına qoşulmuş, Avropa Patent Təşkilatı ilə əməkdaşlıq əlaqələri yaradılmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən və qeyri-neft sektorunun inkişafına yönəldilən məqsədyönlü iqtisadi siyasət təcrübələrə və insan kapitalına hesablanan innovativ iqtisadiyyatın inkişafına xidmət etməkdədir. Cəmiyyətimizdə əqli mülkiyyətə iqtisadi faktor kimi artan maraq da bütün bunların əyani sübutudur. Sürətlə dəyişən dünyada Azərbaycan getdikcə öz mövqelərini möhkəmləndirir və layiqli yerini tutur. Davamlı inkişafın “Azərbaycan modeli” bir sıra vacib amilləri, o cümlədən innovativlik və modernləşməni, biliklərə əsaslanan tərəqqini, informasiya-kommunikasiya texnologiyaları və əqli mülkiyyətin prioritetliyini özündə cəmləşdirir. Əqli mülkiyyət sahələri – ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilər ölkəmizdə Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılmış normativ-hüquqi aktlarla tənzimlənməkdədir. 2012-ci ildə “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun qəbul olunması isə bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirmişdir.

Ölkəmiz əqli mülkiyyət hüquqlarının qorunması sahəsində beynəlxalq sistemə uğurla inteqrasiya olunmuş, yaradıcılıq fəaliyyəti nəticələrinin hüquqi mühafizəsinə əlverişli zəmin yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasında əqli mülkiyyətin qorunması və inkişafı sahəsində həyata keçirilən uğurlu siyasət, sahibkarlığın və elmin inkişafına dövlət qayğısı əqli mülkiyyət sisteminin uğurlu fəaliyyətinə təminat yaradılması ilə nəticələnmişdir. Əqli mülkiyyətin mühafizəsi sahəsindəki dövlət siyasəti elmi-texniki potensialın saxlanması və qorunması üçün zəruridir. Muxtar respublikada iqtisadi siyasətin həyata keçirilməsi istiqamətində, o cümlədən intellektual kapitaldan istifadənin genişləndirilməsi və texnoloji inkişafın stimullaşdırılması, kontrafakt malların dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi üzrə ardıcıl tədbirlər bu gün də uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qarşısında muxtar respublikada əqli mülkiyyətin mühafizəsinin formalaşdırılması və regional inkişafa uyğunlaşdırılaraq sənayedə tətbiqi kimi mühüm vəzifələr dayanır. Komitə sənaye mülkiyyəti obyektlərinin mühafizəsi üçün əqli mülkiyyətin qorunması sahəsində mütəmadi tədbirlər həyata keçirir, muxtar respublikada patent sahəsinin inkişafını diqqət mərkəzində saxlayır. Patent sistemi vasitəsilə sənaye mülkiyyəti obyektlərinə dair iddia sənədlərinin qəbulu və ekspertizası həyata keçirilir, dövlət reyestri aparılır, bu sahədə hüquqların qorunması və beynəlxalq sistemlərə inteqrasiya təmin olunur.

Fəaliyyət dövrü ərzində komitəyə ixtiraya dair iddia sənədinin qeydiyyata alınması ilə bağlı 66, sənaye nümunəsinə dair 121, faydalı model üçün isə 6 müraciət daxil olmuş və dövlət ekspertizası aparılmışdır. Qüvvədəolma müddəti 20 il olmaqla, 28 ixtira, qüvvədəolma müddəti 10 il olmaqla, 45 sənaye nümunəsi və 1 faydalı model patentləşdirilmişdir. Əmtəə nişanları və coğrafi göstəricilərə mühafizə sənədi almaq üçün 1684 iddia sənədi qəbul edilmiş, onlardan qüvvədəolma müddəti 10 il olmaqla, əmtəə nişanlarına dair 1001, coğrafi göstəricilərə dair 5 şəhadətnamə dövlət reyestrində qeydiyyata alınmışdır. Komitənin tərkibində fəaliyyət göstərən Elmi-Texniki Kitabxananın patent fondu da komplektləşdirilmişdir. Fondda xarici ölkələrə məxsus 3 min 655 ixtira, həmçinin əmtəə nişanları və coğrafi göstəricilər, ixtiralar, faydalı modellər və sənaye nümunələrinə dair rəsmi bülletenlər toplanmış və yeni ədəbiyyatlarla zənginləşdirilmişdir. Əqli mülkiyyət hüquqlarının qorunmasına, bu sahədə maarifləndirmə işlərinin genişləndirilməsinə və əqli yaradıcılıq nəticələrindən qeyri-qanuni istifadənin qarşısının alınmasına da xüsusi diqqət yetirilir.

Muxtar respublikada əqli mülkiyyətin inkişaf etdirilməsi, ixtiraların istehsalatda tətbiqi və alınmış patentlərin beynəlxalq mühafizəsi tədbirləri bundan sonra da üstün istiqamət kimi davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Naxçıvan tarixşünaslığı üçün dəyərli mənbələr



***AMEA Naxçıvan Bölməsində “Naxçıvanın tarixi abidələri” və “Kültəpədə arxeoloji qazıntılar” kitablarının təqdimatı olub.***

Tədbiri giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev 2006-cı ildən etibarən AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyasının muxtar respublika ərazisində beynəlxalq ekspedisiyalarla birgə apardığı arxeoloji qazıntılar və bu tədqiqatların Naxçıvanın qədim tarixinin öyrənilməsindəki rolu barədə danışıb.

Bildirilib ki, Naxçıvan tarixi abidələrlə zəngin olan bir diyardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” Sərəncamı əsasında Naxçıvanın tarixi və mədəniyyət abidələrinin öyrənilməsinə başlanılıb.

Qeyd olunub ki, AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və Naxçıvan Dövlət Universitetinin müəllimi Fizzə Quliyevanın müəllifi olduqları “Naxçıvanın tarixi abidələri” adlı dərslikdə 2006-2016-cı illərdə aparılan arxeoloji araşdırmalar zamanı aşkar olunan müxtəlif dövrlərə aid abidələr və maddi-mədəniyyət nümunələri elmi cəhətdən təhlil edilib. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi bu mədəniyyətin mənşəyi, xronologiyası və inkişaf xüsusiyyətləri ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirilib. Digər yeni nəşr isə “Kültəpədə arxeoloji qazıntılar” adlanır. AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, həmin institutun Arxeoloji xidmət şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva, Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşı Catherine Marro, Remi Berthon və Savaş Sarıaltunun həmmüəllif olduqları kitabda I Kültəpə yaşayış yerində aparılan tədqiqatların nəticələri işıqlandırılıb. Araşdırmalar nəticəsində məlum olub ki, I Kültəpə ətrafında yerləşən Neolit və Eneolit abidələri yalnız Azərbaycan deyil, bütövlükdə, Cənubi Qafqaz və Yaxın Şərq arxeologiyası üçün böyük əhəmiyyət kəsb edir. Hər iki kitab Naxçıvan tarixşünaslığı üçün dəyərli mənbə kimi qiymətləndirilir.







Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Arxeoloji xidmət şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva “Naxçıvanın tarixi və arxeoloji abidələri Naxçıvan tarixinin öyrənilməsi üçün mühüm mənbədir” mövzusunda məruzə edib. Bildirib ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə AMEA Naxçıvan Bölməsində yerli arxeoloji ekspedisiya yaradılıb. AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin rəhbərlik etdiyi ekspedisiya Şərur rayonundakı Ərəbyengicə abidəsində, Babək rayonunun Yeniyol yaşayış yerində qiymətli materiallar əldə edib. Cənubi Qafqaz Neolitinin ən qədim təmsilçilərindən olan I Kültəpə və onun ətrafındakı abidələrin tədqiqində də maraqlı elmi nəticələrə gəlinib. Bu abidələrdə adıçəkilən ekspedisiya ilə yanaşı, Fransa Milli Araşdırmalar Mərkəzi tərəfindən Catherine Marronun başçılığı ilə təşkil olunmuş ekspedisiya üzvləri də iştirak ediblər. Təqdimat mərasimi keçirilən yeni nəşrlər bu illər ərzində görülən işlərin hesabatı kimi meydana çıxıb.

“Naxçıvanın tarixi abidələri” adlı dərslikdə qədim dövrdən başlamış orta əsrlər dövrü də daxil olmaqla, Naxçıvanda yaradılmış tarixi-memarlıq abidələrinin təsviri və öyrənilməsi tarixi öz əksini tapıb. Naxçıvan tarixi ilə bağlı kitabda həmin sahələrdə tədris ədəbiyyatı və elmi nəşr qıtlığını aradan qaldıracaq.

Təqdimatda bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli, həmin institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov çıxış edərək hər iki kitabın Naxçıvan tarixinin öyrənilməsi baxımından dəyərli bir mənbə olduğunu qeyd ediblər.

“Naxçıvanın tarixi abidələri” və “Kültəpədə arxeoloji qazıntılar” kitablarının müəllifləri adından AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev çıxış edərək Naxçıvanda aparılan arxeoloji işlərdən və onların nəticələrindən ətraflı söhbət açıb.

Tədbir çərçivəsində eramızdan əvvəl VII-I minilliklərə aid edilən I Kültəpə yaşayış yerində və onun ətrafında aparılan elmi tədqiqatları əks etdirən videogörüntülər nümayiş etdirilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Memarlıq inciləri*

# İmamzadə türbəsi islami dəyərlərin güzgüsüdür

***Beşminillik tarixə malik olan, bəşər sivilizasiyasına verdiyi dəyərli töhfələri ilə seçilən Naxçıvan bir-birindən qədim İslam mədəniyyəti abidələri ilə zəngindir. Belə qədim tikililərdən biri də Naxçıvanqalanın yaxınlığında ucalan tarixi İmamzadə abidəsidir. Bu gün həmin abidə ən çox ziyarət olunan müqəddəs məkanlardandır.***



İmamzadə kompleksi tarixsevərlər üçün maraqlı məkanlardan biridir. Kompleks ərazisində ikisi bitişik, biri ayrı olmaqla, üç türbə var ki, bu türbələrin də əsası cənub tərəfdə yerləşən türbədir. Abidənin yerləşdiyi ərazini seyr edərkən diqqətimiz türbənin sol divarındakı yazıya yönəldi. Burada qeyd olunur ki, bu memarlıq incisi XVIII əsrdə ərəb və əcəmlərin hakimi, səxavətli xaqan, hörmətli əmir sultan Əbu-Müzəffər Təhmasib Bahadur xanın hakimiyyəti dövründə günahları bağışlanmağa layiq, mərhum Hacı Fulat bəyin oğlu, zəmanəsinin xeyirxahı, sahibkar Hacı Rufəyi bəyin əmri ilə tikdirilib.

İmamzadənin arxa divarının daşları üzərində qədim yazıların həkk olunması, türbənin yaxınlığında Naxçıvan şəhərinin antik və orta əsrlərə aid qala divarlarının yerləşməsi də bu ərazinin qədimliyi barədə deyilən sözləri təsdiqləyir.

Ötən günlərdə biz də bu abidəni ziyarət etdik. Kompleks ərazisi ilə tanışlıqdan sonra türbənin içərisinə daxil olduq. Öyrəndik ki, məzarın üzərində epitafiya-məzar kitabəsi olmadığı üçün onun mənsubiyyəti, kimə aid olması haqqında dəqiq fikir söyləmək mümkün deyil. Ancaq şəhərin yaşlı əhalisinin söylədiyinə görə, bu məzarda İmam Rzanın oğlu dəfn edilib. Deyilənə görə, türbənin sol küncündə yerləşən məzar da onun məzarıdır. Rəvayət olunur ki, imamın oğlu məzhəb münaqişələrindən uzaqlaşaraq buraya pənah gətirib. O vaxtdan indiyədək əhali onun yaşadığı bu yeri özünə inanc yeri seçib.Türbənin içərisinə nəzər saldıqda divarlarda olan, islami dəyərləri əks etdirən tablolar və xalçalar da diqqətimizi çəkdi. Həmçinin o da məlum oldu ki, burada Naxçıvanın tarixi yerləri haqqında məlumatları əks etdirən kitablar da var. Kitabların bura qoyulmasında məqsəd isə xarici ölkələrdən gələn qonaqlara bu qədim diyar haqqında daha dolğun məlumat çatdırmaqdır.

Təqdirəlayiq haldır ki, hər il buraya Azərbaycanın bölgələri ilə yanaşı, xarici ölkələrdən də çox sayda turistlər gəlir. Abidə müəyyən dövrlərdə yad təsirlərə məruz qalsa da, bir çox qədim abidələr kimi, bu mədəniyyət nümunəsi də tarixin çətin sınaqlarından üzüağ çıxıb.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra bütün tarixi abidələr kimi, bu qədim ziyarət yeri də məhv olma təhlükəsindən qurtardı. “Dini etiqad azadlığı haqqında” Qanunun qəbul edilməsi bu istiqamətdə atılan ilk addım oldu. Ümummilli lider Heydər Əliyevin tarixi keçmişimizin yaşadılması, xalqımıza məxsus milli dəyərlərin qorunması istiqamətində həyata keçirdiyi tədbirlər nəticəsində bütün qədim abidələr kimi, bu mədəni irsə də münasibət dəyişdi. Görülən irimiqyaslı tədbirlər nəticəsində tariximizin təcəssümü olan mədəniyyət abidələri, eləcə də, İmamzadə Kompleksi bərpa olunaraq xalqa qaytarıldı.

Ziyarətgahdan tez-tez yolunu salan Zenfira Quliyevanın, Adilə Əlimərdanovanın, Tərlan Musayevanın dediklərindən: “Əvvəllər bu ziyarətgahın vəziyyəti indiki kimi ürəkaçan deyildi. Hər tərəfdə uçulub sökülmüş hissələr görmək olardı. Yəni dinimizə uyğun ayinləri yerinə yetirməyə şərait yox idi. Şəraitsizliklə bağlı şikayətləri böyüklərin dilindən tez-tez eşitmək olurdu. İndi o dövrdən çox illər keçib. Dövlətimiz tərəfindən tariximizə, mədəniyyətimizə, eləcə də inanc yerlərinə göstərilən qayğının nəticəsidir ki, bu gün İmamzadə şəhərin ən abad ziyarətgahlarından birinə çevrilib. Bu, bizi çox sevindirir”.

Bəli, hər daşının, hər qayasının altında böyük bir tarix yatan Naxçıvan torpağı bu gün öz tarixi-mədəniyyət abidələri, gözəl memarlıq inciləri ilə bütün dünyanı heyran edir. Bu abidələr xalqımızın əsrlərboyu qoruyub saxladığı mədəni dəyərlərinin, yüksək dini tolerantlığının, dözümlülüyünün güzgüsüdür. Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır...

**✍ Nail ƏSGƏROV**

Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Ənənəni qoruyaq, evdə xalça toxuyaq

Reportaj

*Xalçaçılıq sənəti xalq yaradıcılığının ən zəngin və orijinal nümunələrindən biridir. Xalçalar informasiya daşıyıcıları olmaqla xalqımızın həyat və məişətini özündə əks etdirir. Buna görə də bu sahə dövlətin diqqət mərkəzində saxlanılır, onun yaşadılması, gələcək nəsillərə ötürülməsi üçün müəyyən işlər görülür, layihələr həyata keçirilir. Muxtar respublikamızda da milli dəyərlərə, xalq sənətkarlığının inkişafına hərtərəfli qayğı göstərilir. Bir neçə ildir ki, qədim el sənətinin biliciləri olan qadınlar xalça toxumaq üçün məşğulluq orqanları ilə müqavilələr bağlayaraq toxuculuq dəzgahları, alətləri, əriş-arğac və rəngli iplərlə təmin olunur, uzunluğu 1 metr 20 santimetr, eni 80 santimetr olan milli ornamentli və Naxçıvan bölgəsinə aid naxışlardan ibarət kiçikölçülü xalçalar toxuyur, bu sənəti yaşadırlar.*

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosial əhəmiyyətli haqqödənilən ictimai işin təşkil edilməsi muxtar respublikada xalça toxunuşu ilə məşğul olan insanların sayının artmasına səbəb olub. Bu tədbir eyni zamanda işaxtaran vətəndaşların məşğulluğunun təmin edilməsi, onların maddi rifah halının yaxşılaşdırılması istiqamətində atılan addım kimi də dəyərləndirilir.

Biz də bu qayğıdan bəhrələnən bir neçə nəfərin fəaliyyəti ilə tanış olduq. Babək rayon Qahab kənd sakini Sabirə Zamanova bildirdi ki, gözümü açandan anamın, nənəmin xalça toxuduğuna şahidlik etmişəm. Buna görə də məndə bu işə maraq oyanıb. Anam xalça toxuyanda həmişə yanına gələr, sadə iplərlə gözəl təsvirlər yaratmasını maraqla izləyərdim. Elə o zamanlardan "mən də gələcəkdə xalça toxumağı öyrənəcəyəm", – dedim və bu istəyə çatmaq üçün çalışdım. Zamanla anamdan xalça toxumağı öyrəndim. 2012-ci ildə Naxçıvan Regional Peşə Tədris Mərkəzində təhsil almağa başladım. Qızım Sumayəyə də xalça toxumağı öyrədirəm. O da bu işə çox həvəslidir. Mən xalça toxuyanda gəlib yanımda oturur, bu sənətin sirlərini öyrənmək istəyir. İnanıram ki, bu həvəslə qısa zamanda o da yaxşı xalçatoxuyanlardan biri olacaq.

"Ənənəni qoruyaq, evdə xalça toxuyaq" sosial əhəmiyyətli layihədə yer alandan sonra 2 xalça toxumuşam. Hazırda isə üçüncü xalça üzərində işləyirəm. Evdar qadınam və bu layihədə yer almaq mənimçün olduqca səmərəlidir. Heç yerə getmədən evdə xalçamı toxuyuram, tamamlayıb təhvil verirəm və qarşılığında müəyyən məvacib alıram. Üstəlik də, xalçanın toxunmasında sərf olunan bütün ləvazimatlar nazirlik tərəfindən pulsuz verilir. Bizə yaradılan bu şərait üçün minnətdaram.

Adıçəkilən yaşayış məntəqəsinin digər sakini Anaqız Hüseynova da bu layihəyə qoşulanlardan biridir. 23 yaşlı müsahibimiz deyir ki, artıq 3 ildir, davamlı olaraq xalça toxuyur:

– Məktəb vaxtlarından parça üzərində müxtəlif əl işləri hazırlayıram.



Anam İzəngül Hüseynova da kənddə yaxşı xalça toxucusu kimi tanınır. Mənim özüm də bu işi ilkin olaraq ondan öyrənmişəm. Daha sonrakı mərhələdə isə Naxçıvan Regional Peşə Tədris Mərkəzində oxumuşam. İndiyə kimi 3 xalça toxumuşam. Hazırda dördüncü xalça üzərində işləyirəm. Toxuduğum xalçalar müxtəlif sərgilərdə nümayiş olunub. Hətta "Möminə xatın" adlı xalçam müsabiqədə yer də tutub. Boş vaxtlarımda bu işlə məşğul olaraq qədim xalq sənətinin yeni nümunələrini yaradır, bununla ailə büdcəsinə də köməklik edirəm.

Şərur rayon Tənənəm kənd sakini Güllər Salmanovanın ailəsində xalçatoxuma sənəti illərdir, yaşadılır. İlk olaraq gözümüz dəhliz boyunca salınmış kilimə sataşır. Bəli, evdə, bütövlükdə, ayaq altına qədim xalça növləri salınıb. Müsahibimiz söhbətə belə başlayır:

– Evimizdə gördüyünüz bu xalçaların hamısını vaxtilə biz özümüz toxumuşuq. İllərdir ki, bu evdə xalça toxunur. Özü də biz xalça toxumaq üçün istifadə etdiyimiz ipləri də təbii yolla özümüz boyayırdıq. İplərin rəngi də təbii olduğundan 35-40 ildir, istifadə etdiyimiz xalçaların dəfələrlə yuyulmağına baxmayaraq, rəngləri hələ də olduğu kimi qalıb. Bu sənət bizdə nəsildən-nəslə keçərək yaşadılır. Keçmişdə əldə toxunan xalça ən dəyərli hədiyyə hesab olunar, qızlara cehiz olaraq verilərdi. İndiyə qədər özüm də toxuduğum xalçaların çoxunu hədiyyə olaraq bir çoxlarına bağışlamışam. Hazırda texnologiyanın bu dərəcədə inkişaf etməyinə baxmayaraq, xalçamızın bu qədim sənət növü bu gün də öz dəyərini, qiymətini saxlayır.

Müsahibim deyir ki, layihəyə qoşulandan bəri 4 xalça toxuyub, beşinci xalça üzərində işləyir. Xalça toxumaq üçün istifadə etdiyi avadanlıqlar ona dövlət tərəfindən verilib. Saplar da pulsuz verilir. Evdar xanım olaraq bu iş onun üçün olduqca əlverişlidir.

Şərur rayon Düdəngə kənd sakini Xəyalə Əliyarova da layihəyə qoşulanlardandır. O deyir:

– İllərdir ki, sapdan müxtəlif dekorlar, güllər, papaq, şərf, corab və sair toxumaqla məşğul olsam da, xalça toxumağı bacarmırdım. Əvvəllər bu işlə məşğul olmaq ağlımdan keçsə də, düzü, bu fikir üzərində çox dayanmırdım. Bir neçə il bundan öncə qərarımı verərək Şərur Texniki-Peşə və Sürücülük Məktəbinə üz tutdum. Burada xalçaçılıq sənətinin sirlərini öyrəndim. İlk işim kimi "Qarabağ" adlı xalçamı toxumuşam. Xalçaçılıq səbir, diqqət və dözümlülük tələb edən sənətdir. Ona görə də bu sənətlə sevərək, həvəslə məşğul olmaq lazımdır. Xalçanın başlığı, küncü, gülü, butası, yeləni var. Bunların hər birini toxuyarkən diqqətli olmaq lazımdır. Əvvəlcədən xalçanın çeşnisi götürülür. Elə ki xalça toxunub qurtardı, gəbəkəsdi mərasimi keçirilir, xalçanı kəsib yerə salırlar.

Xəyalə deyir ki, 3-cü xalça üzərində işləyir. Çalışır ki, onu qısa zamanda tamamlasın. O, dövlətimizin xalçaçılıqla məşğul olan insanlara göstərdiyi qayğıdan razılığını bildirir.

Ordubad şəhərində Nərmin İsgəndərova, Şahbuz rayonunun Kolanı kəndində Bəstə Əhmədova, Aşağı Qışlaq kəndində Natəvan Zeyniyeva da "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" devizi altında keçirilən layihədə yer alaraq evdə xalça toxumaqla məşğul olur, dövlətimizin bu qayğısından bəhrələnirlər. Onlar bu qiymətli sənətin sirlərini öz yaxınlarına da öyrədirlər. Çalışırlar ki, göstərilən diqqət və qayğıya əməli işləriylə cavab versinlər, xalçaçılıq sənətini yaşadaraq gələcək nəsillərə ərməğan etsinlər.

**Fatma BABAYEVA**

## Həndbol üzrə yoldaşlıq görüşü



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində qızlar arasında həndbol üzrə yoldaşlıq görüşü keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkil etdiyi görüşdə "Naxçıvan" və "Şərur" komandaları üz-üzə gəlib.

Yoldaşlıq görüşündən öncə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov çıxış edərək son illər muxtar respublikada idmana və idmançılara göstərilən diqqət və qayğıdan danışıblar. Vurğulanıb ki, həndbol bölmələri yeni yaradılsa da, qızlar arasında bu idman növünə maraq artıb. Təsadüfi deyil ki, hazırda muxtar respublikanın bir çox tam orta məktəblərində bu idman növü üzrə məşqlər keçirilir.

Qarşılaşmada daha üstün oyun sərgiləyən "Naxçıvan" komandası şərurlu rəqiblərini 7:4 hesabı ilə məğlub edib.

Sonda hər iki komandanın idmançılarına diplomlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

***Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir.***

## Orta tibb işçilərinin sertifikasiya imtahanı olub

Aprelin 17-dən start götürən sertifikasiya imtahanlarının növbəti mərhələsində orta tibb işçiləri beş gün ərzində öz bilik və bacarıqlarını sınayıblar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən suallar tərtib edilərək kompüterə yerləşdirilib. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 60 sual seçilərək imtahanda iştirak edən orta tibb işçilərinə təqdim olunub, eyni zamanda yazılı olmaqla müsahibə mərhələsinin də sualları paylanılıb. Cavablandırma qaydaları izah edilib. Məxfiliyin gözlənilməsi məqsədilə müsahibə sual kartlarında imtahan verənin kod nömrəsi əksini tapıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının elektron zalında üç saat davam edən imtahanın gedişinə imtahan-nəzarət komissiyası tərəfindən nəzarət olunub. İmtahan suallarının test hissəsi üzrə cavab kartlarının yoxlanması kompüterlə, klinik hissəsi üzrə cavabların qiymətləndirilməsi isə mütəxəssislərin iştirakı ilə aparılıb.

İmtahanlarda 112 orta tibb işçisi iştirak edib. Sualların test hissəsi üzrə 40 və ya daha çox, klinik tapşırıq hissəsi üzrə isə 16 və ya daha çox bal toplamış 69 orta tibb işçisi sertifikasiyadan keçərək 5 il müddətində müvafiq ixtisas üzrə praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ əldə edib. 43 nəfər isə zəruri həddi keçə bilməyib. Sertifikatlaşdırma imtahanlarında uğurlu nəticə əldə edə bilməyən orta tibb işçiləri ixtisaslarına uyğun hazırlıq kurslarına cəlb olunacaqlar. Onlar altı ay müddətində iş yerləri saxlanılmaqla müvafiq peşə hazırlığı keçəcək, sonra yenidən sertifikatlaşdırma imtahanlarında iştirak edəcəklər.

## Uşaqlar tibbi müayinədən keçirilib

*Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası Kəngərli rayonundakı Böyükdüz kəndində uşaqları kütləvi profilaktik tibbi müayinədən keçirib.*

Pediatr, stomatoloq, nevropatoloq, ftiziatr, endokrinoloq və laborantlardan ibarət briqada kəndin həkim ambulatoriyasında 36 uşağa tibbi xidmət göstərib, aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün Mərkəzi Uşaq Xəstəxanasına gəlmələri məsləhət görülüb. 42 nəfər valideynlə tibbi maarifləndirmə işi aparılıb, uşaqların sağlamlığının qorunmasında səhiyyə müəssisələri ilə valideynlərin birgə fəaliyyətinin zəruriliyi qeyd edilib.

Xəstələrə pulsuz dərman və sarğı materialları verilib, peyvəndlərin təqvim üzrə aparılması və dispanserizasiya işinin təşkili, tibbi sənədləşmənin düzgün həyata keçirilməsi ilə əlaqədar məntəqə işçilərinə metodik köməklik göstərilib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*"Gənclik" Xalq Teatrı*

## Babək tamaşaçıları qarşısında çıxış edib

***Naxçıvan Şəhər "Gənclik" Xalq Teatrı Tofiq Həsənovun "Şöhrət ardınca" birpərdəli komediyasını Babək Rayon Mədəniyyət Evində rayon ictimaiyyətinə təqdim edib.***



Tamaşadan əvvəl Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri Təranə Cəfərova çıxış edərək bildirib ki, Naxçıvan şəhərində fəaliyyət göstərən "Gənclik" Xalq Teatrı 1973-cü ildən Naxçıvan şəhər 1 nömrəli Mədəniyyət Evində dram dərnəyi kimi fəaliyyətə başlayıb, 1978-ci ildə kollektivə xalq teatrı statusu verilib. Teatrın səhnəsində müxtəlif illərdə maraqlı səhnə əsərləri oynanılıb. "Ezop", "Bəxtsiz cavan", "Ölülər", "Kamança", "Ana", "Məhəbbət nişanəsi", "Durna", "Yollara iz düşür", "Vaqif" və başqa pyeslər tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Teatrın səhnəsində vaxtilə maraqlı obrazlar yaratmış aktyor və aktrisaların çoxu Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülməklə bu gün də teatr səhnəmizə öz töhfələrini verirlər.

Sonra "Şöhrət ardınca" tamaşası göstərilib. Kiçikhəcmli bu pyesdə sosializm quruluşu dövründə Azərbaycanın bir ictimai təsərrüfatındakı saxtakarlıqlardan bəhs olunur. Tamaşa sovet təsərrüfat sisteminin eybəcərliklərini, eyni zamanda vəzifəsinin öhdəsindən gələ bilməyən təsərrüfat rəhbərlərinin şöhrət dalınca qaçmasını tənqid edir, maraqlı dialoqlar, gülüşdoğuran səhnələr tamaşaçılarda xoş ovqat yaradır. Komediyada saxtakarlıqla qazanılan şöhrətin aqibəti tamaşaçıya çatdırılır.

Kolxoz sədri Zəbi Qəniyev (aktyor Abbas İsmayılov) və onun hesabdarı Sədrəddin (aktyor Akif Əsədov) vəzifələrindən sui-istifadə edərək təsərrüfatda əliəyriliklə məşğuldurlar. Hər iki rolun ifaçıları bu tipləri maraqlı cizgilərlə canlandırırlar.

Sultan Səfərovun və Qəmər Babayevanın yaratdıqları Həlimov və Solmaz surətləri də təbii və canlı olmaqla tamaşaçını cəlb edir.

Səhnə əsərinin quruluşçu rejissoru Akif Əsədov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov, rəssamı Günel Mustafayevadır.

Tamaşa rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 338